# Zəfərə İLHAM ƏLİYEV ruhlandırdı



## Cüdoda medal yağışı: 4 qızıl və 5 gümüş

Paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarında həyəcan davam edir. Bütün idman növlərində bir-birindən maraqlı idman mübarizələrinin şahidi oluruq. Mayın 13-də idmançılarımız müxtəlif idman növlərində uğurla çıxış edərək ölkəmizin hesabına medallar yazdırdılar. Sözsüz ki, daha çox diqqət mərkəzində olan və medal gözlənilən idman növlərindən biri də cüdodur. Cüdoçularımız İslamiadanın ilk yarış günündə qazandıqları medallarla xalqımızı sevindirdilər.

Ümumiyyətlə, ilk yarış günündə 9 medal (4 qızıl və 5 gümüş) qazanılması Azərbaycan komandasının nə qədər güclü olduğunu demək üçün kifayətdir. Bu nəticələrlə cüdoçularımız növbəti dəfə ölkəmizin idman şöhrətini yüksəklərdə saxlayıblar. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri, eləcə də Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizer Heydər Əliyev adına İdman Sarayında final qarşılaşmasını izləyiblər.

*Ardı 2-ci səh.*

